**UOT 621.395.13**

**RƏSULOV A.V., RƏSULOVA V.M., RƏSULOV V.A. RƏSULOV F.A.**

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İSTEHSALI VƏ TƏDARÜKÜ MÜƏSSİSƏLƏRİNİN RESURSLARININ SƏMƏRƏLİ İSTİFADƏSİNİN PLANLAŞDIRILMASI[1]

Kənd təsərrüfatı məhsullarının istehsalı və istehlakının, habelə, resurslarının səmərəli istifadəsinin planlaşdırılmasının[1] əsas prinsipləri – elmilik, sistemlilik, qənaətlilik, ekoloji tarazlığın təmin edilməsi, iqtisadi həvəsləndirmə, sahə və ərazi tədbirlərinin əlaqələndirilməsi, nəzarətin təşkili və icranın yoxlanılması, göstəricilərin müqayisəli təhlili araşdırılmışdır.

Məlum olduğu kimi xalqın maddi tələbatları və əsasən kənd təsərrüfatı məhsulları ilə hazırda önəmlidir. Odur ki, kənd təsərrüfatının birinci dərəcəli sahə kimi inkişafı diqqət mərkəzində olmalıdır. Bu sahənin inkişafının sürətləndirilməsi ilə əlaqədar ölkə başçısı bir neçə sərəncam vermişdir. Bu sahə demək olar ki, daha çox diqqət və qayğı tələb edir. 30 il işğal altında olan torpaqlar işğaldan azad edildikdən sonra kənd təsərrüfatının inkişaf strukturu təkmilləşmiş və əkin sahələri genişləndirilmişdir.

Odur ki, kənd təsərrüfatı sistemində xalqın tələbatı nəzərə alınaraq, kənd təsərrüfatı sahələrində resurslarının səmərəli istifadəsinin planlaşdırılması və idarə edilməsi məsələləri xüsusi aktuallıq kəsb edir. Bu resursların səmərəli istifadəsinin planlaşdırılması dialektikanın qanunlarına, metodoloji prinsiplərinə, habelə, obyektiv iqtisadi qanunların tələblərinə əsaslanır. Bütün bunlarla yanaşı kənd təsərrüfatı sahələrinin istehsal proseslərinin təşkili, planlaşdırılması və idarə edilməsində qardaş ölkələrin təcrübəsindən istifadə etməklə ən yeni innovativ metod və vasitələrin tətbiqinə üstünlük verilir.

Kənd təsərrüfatı sahələrinin itgisiz olaraq müvafiq məntəqələrə çatdırılmalıdır. Loqistik prinsip və metodlardan istifadə etmək zəruridir.

Beləliklə, kənd təsərrüfatı sahələrinin idarə edilməsinin təkmilləşdirilməsinə onların resurslarının səmərəli istifadəsinin təşkili,

[1]Elmi rəhbər: Azərbrbaycan espublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, i.e.d. S.Q. Cümşüdov

planlaşdırılması, uçota alınması və müqayisəli təhlil edilməklə qiymətləndirilməsi zəruridir. Bu iş hər zaman yerli icra aparatı işçilərinin diqqət mərkəzində olmalıdır.

Marketinq tədqiqatları əsasında ölkəmizdə kənd təsərrüfatı sistemində məhsulların istehsalı və tədarükü nəzərə alınmaqla, resurslara olan tələbatın və mütəxəssis kadrlara olan tələbat müəyyən edilməlidir. Bu tələbatların planlaşdırılması, uçotu, təhlili və qiymətləndirilməsi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- **Elmi yanaşma.** Kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü sahəsində elmi-texniki tərəqqinin nailiyyətləri nəzərə alınmaqla, resursların səmərəli istifadəsinin planlaşdırılması, təşkili və idarə edilməsində obyektiv iqtisadi qanunların tələbləri nəzərə alınmalıdır.
- **Sistem yanaşma**. Kənd təsərrüfatı məhsullarının istehsalı sahəsinə vahid bir kibernetik sistem kimi baxılmalıdır. Belə ki, bu tam sistemin bütün elementlərinin qarşılıqlı əlaqələri və təsiri nəzərə alınmalıdır.
- **Kompleks yanaşma.**Kənd təsərrüfatı məhsullarının istehsalı və tədarük müəssiələrinin resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi məsələlərinin həllində texniki-texnoloji, ətraf mühitin qorunması, təşkilati, ideya-tərbiyəvi, psixoloji, fizioloji, sosial və iqtisadi amillər kompleks halında nəzərə alınmalıdır.
- **Optimallıq.** Kənd təsərrüfatı sistemində və onun bölmələrində resursların istifadəsinin plan-iqtisad, təşkilati və idarəetmə məsələlərinin çoxvariantlı olduğunu nəzərə alaraq, həmin variantlardan qəbul edilmiş meyara nəzərən ən yaxşısının (optimal variantın) seçilməsi tələb olunur. Optimal variantın seçilməsi resursların səmərəli istifadəsinin iqtisadi-riyazi modelləşdirilməsini və müvafiq riyazi optimallaşdırma metodlarının tətbiqini tələb edir. Müvafiq iqtisadi-riyazi modelin reallaşdırılması informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əldə edilir.
- **Səmərəlilik.** Kənd təsərrüfatı sistemində məhsul istehsası və tədarükü müəssisələrində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi məsələlərin həlli ilə əlaqədar planlaşdırılacaq tədbirlər iqtisadi cəhətdən səmərəli olmalıdır. Odur ki, tətbiq olunacaq tədbirlərin iqtisadi səmərəliliyi məlum metodika ilə qabaqcadan müəyyən edilməlidir.
- **Ekoloji tarazlıq.** Kənd təsərrüfatı proseslərinin ən yeni texnologiya əsasında təşkili, planlaşdırılması və idarə edilməsi kənd təsərrüfatı sisteminin müəssisələrində istifadə olunan avtonəqliyyat vasitələrinin maye-qaz yanacağına keçirməklə ekoloji tarazlıq qismən təmin edilir.
- **Qənaətçilik.** Kənd təsərrüfatı sisteminin bütün bölmələrinin sərəncamında olan bütün resurslardan tam səmərəli istifadə olunmalı, həmçinin təbii, material-texniki, müxtəlif növ enerji, əmək və maliyyə resurslarının səmərəli istifadəsinin cari və strateji biznes-planı işlənib hazırlanmalıdır. Resursların səmərəli istifadəsinin cari və strateji biznes-planı əməli-təqvim tədbirlər proqramı-qrafiki üzrə reallaşdırılmalıdır.
- **Sahə və ərazi idarəetmənin məqsədəuyğun əlaqələndirilməsi.** Kənd təsərrüfatı sistemində resursların səmərəli istifadəsinin planlaşdırılması və idarə edilməsində sahə (nazirliklər) və ərazi (icra hakimiyyətləri) amillərinin (tədbirlərinin) əlaqələndirilməsi tələb olunur.
- **Maddi və mənəvi həvəsləndirmə.** Kənd təsərrüfatı sisemində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsində kollektivin maddi və mənəvi maraqlarının stimullaşdırılması təmin edilməlidir.
- **Şəxsi, kollektiv və dövlət (ümumxalq) mənafelərinin düzgün əlaqələndirilməsi.** Kənd təsərrüfatı sistemində resursların qorunması, mənimsənilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar şəxsi, kollektiv və ümumxalq (dövlət) mənafeləri düzgün əlaqələndirilməli, uzlaşdırılmalıdır. Qeyd etmək lazımdır ki, burada ümumxalq (dövlət) mənafeyi başlıca meyar kimi qəbul edilməlidir.
- **Təkbaşına rəhbərlik və əməkçillərin hər birinin resursların qorunması, mənimsənilməsi və idarə edilməsində iştirakı-**

**nın təmin edilməsi.** Kənd təsərrüfatı resursların qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi istiqamətində tədbirlərin hazırlanması və həyata keçirilməsində vahid-təkbaşına rəhbərliklə yanaşı, əməkçillərin hər birinin fəal iştirakı təmin edilməlidir.

- **Nəzarətin təşkili və icranın yoxlanılması.** Kənd təsərrüfatı sistemində resursların qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi tədbirlərinin həyata keçirilməsinə nəzarətin təşkili və icranın yoxlanılması zəruri hesab edilir. Bu məqsədlə xüsusi komissiyalar yaradılır və onların hesabatı dinlənilir. Bu hesabatı ümumi yığıncaqda müzakirə edərək. Qərar qəbul edilir.
- Kənd təsərrüfatı sistemində nəqliyyat və rabitə infrastrukturu bölmələrinin işinin səmərəli idarə edilməsinə nəzarətin təşkili və icranın yoxlanılması da diqqət mərkəzində olmalıdır.

Yuxarıdakı prinsipləri nəzərə alaraq kənd təsərrüfatı sisteminin müəssisələri üçün cari və strateji biznes-planı işlənib hazırlanarkən həmin sistemin bütün bölmələrinin sərəncamında olan təbii, material-texniki, enerji, əmək, informasiya və maliyyə resurslarının biznes-plana müvafiq istifadəsinin əsas göstəriciləri aşağıdakı metodika üzrə planlaşdırılmalı, uçota alınmalı və və müqayisəli təhlil edilərək qiymətləndirilməlidir.

1. Təbii resursların səmərəli istifadə göstəriciləri:

a) təbii resursların gəlirlilik əmsalı:

$$\beta_g^{t.r} = \frac{\sum G_ö}{\sum X_{t.r}}$$

burada $\sum G_ö$ - kənd təsərrüfatı sisteminin illik gəlirinin ümumi məbləği; $\sum X_{t.r}$ - kənd təsərrüfatı sisteminin təbii resursların qorunması və istifadəsi ilə əlaqədar xərclərdir.

b) təbii resursların mənfəətlilik əmsalı:

$$\beta_M^{t.r} = \frac{\sum M_b}{\sum X_{t.r}}$$

burada $\sum M_b$ - kənd təsərrüfatı sisteminin illik balans mənfəətinin ümumi məbləğidir.

2. Kənd təsərrüfatı sisteminin material-texniki resursların səmərəli istifadə göstəriciləri:

a) material-texniki resursların gəlirlilik əmsalı:

$$\beta_g^{m.r} = \frac{\sum G_ö}{\sum X_{m.t.}},$$

burada $\sum G_ö$ - kənd təsərrüfatı sisteminin illik gəlirinin ümumi məbləği, $\sum X_{m.t.}$ - material-texniki resurslara çəkilən illik xərclərdir.

b) material-texniki resursların mənfəətlilik əmsalı:

$$Я_M^{m.t.} = \frac{\sum M_b}{\sum X_{m.t.}}.$$

3. Kənd təsərrüfatı resurslarının səmərəli istifadə göstəriciləri:

a) kənd təsərrüfatı resurslarının gəlirlilik əmsalı:

$$\beta_G^{en} = \frac{\sum G_ö}{\sum X_{k.t}}$$

burada – $\sum G_ö$ - kənd təsərrüfatı sisteminin illik gəlirinin ümumi məbləği, $\sum X_{k.t}$ - kənd təsərrüfatı resurslarına çəkilən xərclərdir.

c) kənd təsərrüfatı resurslarının mənfəətlilik əmsalı:

$$\beta_M^{en} = \frac{\sum M_b}{\sum X_{en}}.$$

4. Kənd təsərrüfatı sisteminin əmək resurslarının səmərəli istifadə göstəriciləri:

a) əmək resurslarının gəlirlilik əmsalı:

$$\beta_G^{ÿ.r} = \frac{\sum G_ö}{\sum \beta_{hf}},$$

burada $\sum G_{ö}$ - kənd təsərrüfatı sisteminin illik gəlirinin ümumi məbləği, $\sum E_{hf}$ - illik əmək haqqı fondudur.

b) əmək resurslarının mənfəətlilik əmsalı:

$$\beta_M^{y.r} = \frac{\sum M_b}{\sum \beta_{hf}}$$

5. Kənd təsərrüfatı sisteminin maliyyə resurslarının səmərəli istifadə göstəriciləri:

a) uzun müddətli kreditin gəlirlilik əmsalı:

$$\beta_g^{u.k} = \frac{\sum G_{ö}}{\sum UK}$$

burada $\sum G_{ö}$ - kənd təsərrüfatı sisteminin illik gəlirinin ümumi məbləği, $\sum UK$ - kənd təsərrüfatı sisteminin uzun müddətli kreditin illik məbləğidir.

b) uzun müddətli kreditin mənfəətlilik əmsalı:

$$\beta_M^{u.k} = \frac{\sum M_b}{\sum UK}$$

v) qısa müddətli kreditin gəlirlilik əmsalı:

$$\beta_g^{q.k} = \frac{\sum G_{ö}}{\sum QK},$$

burada $\sum G_{ö}$ - kənd təsərrüfatı sisteminin illik gəlirinin ümumi məbləği, $\sum QK$ - kənd təsərrüfatı sisteminin qısa müddətli kreditin illik məbləğidir.

c) qısa müddətli kreditin mənfəətlilik əmsalı:

$$\beta_M^{q.k} = \frac{\sum M_b}{\sum QK}$$

## ƏDƏBİYYAT


1. Cümşüdov S.Q. Xidmət sahələrinin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi. Dövlət idarəçiliyi jurnalı. №1(9), Bakı, "Çaşıoğlu", 2005, səh. 96-104.
2. Cümşüdov S.Q., Hüseynov V.Z. Avtomobil nəqliyyatında resurslar və onların səmərəli istifadə göstəriciləri. AzTU-nun elmi əsərləri №4, 2017, səh. 185-190
3. Cümşüdov S.Q. Azərbaycanda "Elektron hökümətin formalaşmasının metodoloji prinsipləri. Elektron hökümət Azərbaycanda". Beynəlxalq konfransının məruzə materialları. AzTU, Bakı 26-28 aprel, 2010, səh. 157-160.
4. Cümşüdov S.Q., Məmmədova G.V. Metallurgiya şirkətlərində nəqliyyat və rabitə xidmətlərinin səmərəli təşkili məsələləri. "Metallurgiya və materialşünaslığın problemləri". I Beynəlxalq konfransın materialları. Bakı 29-30 aprel, 2013, səh. 231-232.


**Rəsulov A.V., Rəsulova V.M.,**
**Rəsulov V.A. Rəsulov F.A.**

## Kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü müəssisələrinin resurslarının səmərəli istifadəsinin planlaşdırılması

## XÜLASƏ

Məqalədə kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü müəssisələrində resurslarının səmərəli istifadəsinin planlaşdırılması məsələləri loqistik prinsip və metodlar əsasında araşdırılmışdır. Burada, loqistik prinsip və metodlara əsaslanaraq araşdırılan təsərrüfatlarda resurslarının səmərəli istifadəsinin planlaşdırılmasının əsas prinsipləri və göstəriciləri təhlil edilməklə qiymətləndirilməlidir.

***Açar sözlər:*** *kənd təsərrüfatı, loqistika, istehsal, resurslar, tədarük, elmilik, sistemlilik, komplekslilik, qənaətlilik, ekoloji təhlükəsizlik, rentabellilik, səmərəlilik, gəlirlilik, mənfəətlilik.*

**Расулов А.В., Расулова В.М.
Расулов В.А., Расулов Ф.А.**

**Планирование эффективного использования ресурсов предприятий сельского хозяйство по производство – заготовки сельского хозяйственного продукта**

**РЕЗЮМЕ**

В статье рассмотрены планирование эффективного (с учетом логистических принципов и методов) использования ресурсов сельскохозяйственных предприятий. Особое внимание уделено принципам и показателям оценки ресурсов сельскохозяйственных предприятий по производство и заготовки сельхоз продуктов.

***Ключевые слова:*** *сельское хозяйство, логистика, производство, ресурсы, заготовка, научность, системность, комплексность, экономичность, экологическая безопасность, рентабельность, эффективность, доходность, прибыльность.*

**Rasulov A.V., Rasulova V.M.,
Rasulov V.A. Rasulov F.A.**

**Planning for the efficient use of enterprise resources agriculture by production – agricultural procurement economic product**

**SUMMARY**

The article discusses planning for efficient (taking into account logistic principles and methods) use of agricultural enterprises' resources. Particular attention is paid to the principles and indicators for assessing agricultural enterprises' resources for the production and procurement of agricultural products.

***Key words****: agriculture, logistics, production, resources, procurement, scientific, systematic, comprehensive, cost-effective, environmental safety, profitability, efficiency, profitability, profitability.*

*Məqaləyə AzTU-nun “Maşınqayırma texnologiyası” kafedrasının dosenti, i.ü.f.d., C.R. Rəhimov rəy vermişdir.*